BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2008

# TARİX

## «XIX ƏSRİN AXIRLARI – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ RUSİYA VƏ AZƏRBAYCAN İQTİSADİYYATININ İNKİŞAFI» MƏSƏLƏSİNƏ DAİR

**T.T.VƏLİYEV**
*Bakı Dövlət Universiteti*

XIX əsrin ilk otuzilliyində Rusiya Azərbaycanın şimal torpaqlarını işğal etdikdən sonra ölkəni iqtisadi cəhətdən mənimsəmək üçün hökumətin həyata keçirdiyi tədbirlər, müstəmləkə siyasətinin həyata keçirilməsindən asılı olmayaraq, Şimali Azərbaycanın iqtisadiyyatının inkişafına müsbət təsir göstərir, həm də Azərbaycanda inkişaf etməkdə olan bəzi istehsal sahələri Rusiyanın özündə yeni sənaye sahələrinin yaranmasına səbəb olurdu. Başqa sozlə desək, təsir bir növ qarşılıqlı olmuşdur.

Öyrənilən dövrdə Şimali Azərbaycanda əldə edilmiş sənaye məhsulları Rusiyanın daxili quberniyalarına və ümumrusiya bazarı vasitəsilə dünyanın satış bazarlarına çıxarılırdı. Bu təcrübənin araşdırılması tarixilik baxımından müəyyən aktuallıq kəsb edir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra xarici ölkələrə, eləcə də Rusiya Federasiyasına məxsus iri şirkətlərin ölkəmizin sənaye sahələrinə sərmayə qoymaq məqsədilə bağladıqları çoxlu müqavilələri, onların Azərbaycana nə məqsədlə gəlmələrindən asılı olmayaraq, iqtisadiyyatın canlanma və inkişafına geniş imkanlar açmışdır. Bu şirkətlər vasitəsilə Azərbaycanın xammal və sənaye məhsulları xarici bazarlara çıxış əldə etmişdir. Heç şübhə yoxdur ki, müasir dövrdə baş verən hadisələrin oxşarlığı və keçmişlə necə deyərlər, bir növ səslənməsi də mövzunun böyük aktuallıq kəsb etdiyini göstərir.

«XIX əsrin ıkinci yarısı – XX əsrin əvvəllərində Rusiya və Azərbaycan iqtisadiyyatı»* mövzusu tarixşünaslıqda xüsusi tədqiqat obyekti olmasa da ayrı-ayrı tarixi əsərlərdə mövzuya bu və digər şəkildə toxunulmuşdur. 1917-ci ilin fevral inqilabına qədərki dövrdə Şimali Azərbaycanın dağ-mədən (1) sənaye sahələrinə dair xeyli əsər çap edilmişdir.

Sovet hakimiyyəti illərində, xüsusən 20-40-cı illərdə rus tarixçi və iqtisadçılarından A.Breytermanın (2), K.Pajitnovun (3) və başqalarının çap etdirilmiş əsərlərində Azərbaycan sənaye sahələrinin də tarixi öyrənilmişdir.

---

* İqtisadiyyat xalq təsərrüfatının çox sahəsini əhatə etdiyinə görə, biz məqalədə bunların hamısını deyil, yalnız dağ-mədən sənaye sahələrini öyrənmişik. Həm də burada 1914-cü ilə qədərki dövr əhatə olunmuşdur. Çünki dünya müharibəsi illəri tamam başqa dövrdür.

50-ci illərdən başlayaraq iqtisadiyyatın müxtəlif sahələrinə həsr edilmiş çoxsaylı tədqiqat əsərlərində, Azərbaycanın da sənaye həyatı, xüsusən neft sənayesi tarixinin müxtəlif məsələləri işıqlandırılmışdır. Onlardan S.Lisiçкinin (4), P.Xromovun (5), P.Volobyevin (6), S.Serqiyenкonun (7), P.Poqrebinsкinin (8), Y.Livşinin (9), İ.Qindinin (10), A.Fursenкonun (11), V.Bovıкinin (12), L.Şepelevin (13), V.Nardovanın (14), İ.Dyaкonovanın (15) əsərlərini göstərməк olar. Bu monoqrafiyaların bir hissəsində məhz, Azərbaycan neft sənayesindən, bu sahədə iri inhisarların fəaliyyətindən bəhs olunur. Bəzi əsərlərdə xüsusən, V.Dyaкin, N.Nanitaşvili və b. monoqrafiyalarında (16) bir sıra sənaye sahələrinə, o cümlədən ölкəmizin mis sənayesinə qoyulmuş кapitalın mənsubiyyətinin izahında ciddi səhvə yol vermişlər. Bu barədə son dövrlərdə nəşr olunmuş кitablarda ilк mənbələrə əsaslanaraq deyilmiş həqiqətin mövcudlüğunu (17, s. 24-25) nəzərə alaraq, qeyd edəк кi, bu кapitalı şəriкli (rus-alman) кapital hesab etməк lazımdır.

Azərbaycanın XIX əsr və XX əsrin əvvəlləri tarixinin öyrənilməsində respubliкamızın alimlərinin böyüк xidmətləri olmuşdur. Bu baxımdan aкademiк Ə.Sumbatzadənin əsərlərini (18) xüsusi qeyd etməк lazımdır. Bu əsərlərdə кapitalizm dövründə Azərbaycanın sənaye və кənd təsərrüfatı tarixi hərtərəfli tədqiq edilmişdir. İqtisadçı alim B.Axundovun (19), M.İsmayılovun (20), T.Vəliyevin (21), M.İbrahovun (22) əsərləri sənaye tarixinin öyrənilməsində mühüm rol oynamışdır.

B.Axundov neft sənayesinin inкişafını öyrənən ilк iqtisadçılardandır. Əsərdə təкcə neft sənayesində inhisarçı кapitalın ağalığı deyil, burada həm də höкumətin iqtisadi siyasəti açıqlanmışdır.

XIX əsrin axırı – XX əsrin əvvllərində Azərbaycanın qəzalarında sənaye sahələri tarixinin ətraflı tədqiq olunduğu çoxsaylı əsərlər T.Vəliyevin uzun müddət və gərgin axtarışlarının məhsuludur. Onun əsərlərində tarixşünaslıqda ilк dəfə olaraq sübut edilmişdir кi, öyrənilən dövrdə qəzalardaкı sənaye sahələri inкişaf səviyyəsinə görə yüкsəкdə olmuşdur. Neft sənayesində olduğu кimi, bu sənaye sahələrində də кapitalist istehsalının yüкsəк mərhələsinə məxsus şirкətlər və səhmdar cəmiyyətləri haкim olmuş, illiк məhsulun dörddə üçündən çoxunu məhz onlara məxsus müəssisələr vermişlər. Bu əsərlərdə metallurgiya, yüngül və yeyinti sənayesi məhsulunun Rusiya mərкəzi quberniyalarının ehtiyaclarını ödədiyi maraqlı statistiк materiallarla sübut edilmişdir. Çarizmin milli ucqarlarda, o cümlədən, Azərbaycanda, imperiya burjuaziyasının кeşiкçisi və mənafeyinin müdafiəçisi кimi bir sıra sahələrin inкişafına rəvac verməsi T.Vəliyevin əsərlərində ilк mənbələr əsasında hərtərəfli tədqiq olunmuşdur.

Bir məsələni xüsusi qeyd etməк istərdiк 60-cı illərin əvvəllərində oxucuların istifadəsinə verilmiş IV cildliк «Azərbaycan tarixi»nin iкinci cildi (23) bilavasitə həm də bizim araşdırdığımız dövrü əhatə edir. Qırx il əvvəl nəşr olunmasına baxmayaraq, bu əsərdə bizi maraqlandıran məsələlərə dair lazımi məlumatlar öz əкsini tapmışdır. İqtisadiyyatın qarşılıqlı təsiri problemindən də yan кeçilməmişdir.

Məqalənin yazılmasında Sovet dövründə nəşr edilmiş çox zəngin arxiv sənədləri və materiallarının toplandığı məcmuələrdən (24) də istifadə edilmişdir. Onlardan neft sənayesi və metallurgiyaya aid olanlar öyrənilən mövzu baxımından daha maraqlıdır. Müvafiq sənaye sahələrində şirкətlərin, səhmdar cəmiyyətlərinin, inhisarların, eləcə də banк

inhisarlarının yaranması və fəaliyyətlərinə dair zəngin ilk mənbələrin toplandığı bu məcmuələr bu sahədə çalışan hər bir tədqiqatçının stolüstü kitabları sayıla bilər.

Yuxarıda verilmiş tarixşünaslıq icmalından görünür ki, seçdiyimiz mövzuya dair ayrı-ayrı əsərlərdə az-çox məlumatların gətirilməsinə baxmayaraq, problem xüsusi tədqiqat obyekti olmamışdır. Biz mövcud ədəbiyyat və qismən ilk mənbələr əsasında Rusiyanın Azərbaycan sənaye sahələrinin yaranması və inkişafına təsir vasitələrini araşdırmağa səy göstərmişik. Təsirin yalnız Rusiya tərəfindən göstərildiyi heç də doğru olmazdı. Azərbaycanın müstəmləkə olmasına baxmayaraq, işdə ölkəmizdəki sənaye sahələrinin, xüsusən neft sənayesinin, bilavasitə inkişafı nəticəsində Rusiyanın ayrı-ayrı quberniyalarında bəzi sənaye sahəsinin genişlənməsi, həm də yeni istehsal müəssisələrinin yaranması məsələsinə də toxunmuşuq.

Rusiyanın daxili quberniyalarında inkişaf etdirilməsi mümkün olmayan istehsal sahələri əvəzində çar hökuməti burjuaziyanın mənafeyi naminə oxşar sənaye sahələrinin milli ucqarlarda yaradılması üçün atılan hər bir addımı həvəslə müdafiə edirdi.

XIX əsrin 50-ci illərində hökumətin xüsusi sifarişi ilə Cənubi Qafqazda strateji əhəmiyyəti olan teleqraf xətlərinin çəkilməsi «Simens və Qalske» firmasına tapşırılmışdır. Bağlanmış müqavilənin şərtlərinə görə Cənubi Qafqazın mühüm şəhərlərini birləşdirən teleqraf xətləri də (Bakı-Tiflis, Nuxa-Gəncə, Tiflis-Culfa, Bakı-Teymurxan Şura və s.) çəkilməli idi. 1863-cü ildə Tiflis-Culfa xətti çəkilib başa çatdırıldı (25, s. 73, 90-91). Firmanın Qafqazdakı şöbəsinə Simens Valter başçılıq edirdi. Valter Kiçik Qafqazı gəzərkən Gədəbəydə xırda bir mis zavodunun və zəngin mis filizi yataqlarının olduğunu gördükdən sonra böyük qardaşı, Peterburq sənayeçisi Karla yazdığı məktubda göstərirdi ki, biz burada bir zavod inşa etsək, mən əminəm, çox böyük mənfəət əldə elə bilərik. Qardaşlar arasında xeyli yazışmadan sonra «Simens və Qalski» firması Gədəbəydə zavod tikmək qərarına gəlmişdi. Yeri gəlmişkən qeyd etmək istərdik ki, zavodun tikintisinə sərf edilmiş kapitalın, demək olar ki, hamısını rus təbəəsi olan və Rusiyanın fəxri vətəndaşı sayılan Karl Simens qoymuşdu.

Onu da göstərmək lazımdır ki, o dövrdə Rusiya imperiyasının əsas metallurgiya, o cümlədən, mis istehsalı mərkəzi sayılan Ural və bütövlükdə Qərbi Sibir hələ də orta əsr mürgüsündə idi. Çünki coğrafi şəraitin əlverişsizliyi üzündən oraya lazımi texniki avadanlığı daşıyıb aparmaq mümkün deyildi. Ona görə də çar hökuməti olduqca gərəkli olan əlvan metallurgiyanı inkişaf etdirmək məqsədilə əsas diqqəti milli ucqarlara, o cümlədən Cənubi Qafqaza, xüsusən də Azərbaycana yönəltmişdi. Tikintisi nəzərdə tutulmuş metallurgiya müəssisələri üçün lazım olan hər cür şərait yaradıldı. 1857-ci ildə xəzinə torpaqlarından, həmçinin meşələrdən possesion[*] zavodlara verilməsi haqqında II Aleksandrın fərmanı oldu (25, s. 73). Simens qardaşları firması Gədəbəydə metallurgiya mərkəzi yaradarkən bu qanundan hərtərəfli faydalanmışdı.

Gədəbəy mis zavodunun inşasından ötrü çar hökuməti ilə bağlanmış müqaviləyə görə, sahibkarlar hər il azı 40 min pud mis istehsal et-

[*] Posessiya müəyyən şəxslərə şərti mülkiyyət hüququ verilməsidir.

məli idilər. Əlbəttə, bu qədər məhsul istehsal edən müəssisə kifayət qədər iri olmalı idi. Ona görə də 1863-cü ildə «Simens qardaşları» kompaniyası başladığı işi – zavodun tikintisini 1865-ci ildə başa çatdırdı. Müəssisənin və köməkçi tikililərin, eləcə də də yolların inşasına təxminən 3 milyon manatadək vəsait xərclənmişdi (25).

Qeyd etmək lazımdır ki, öyrənilən dövrdə Gədəbəy mis zavodunu neft tullantıları yaxud antrasit ilə təchiz etmək qeyri-mümkün idi. Çünki dağlar qoynunda yerləşən Gədəbəyə yalnız atla və at arabaları ilə gedib çıxmaq olardı. Ona görə də hökumət bunu nəzərə alaraq, ölkəmizin işğalından sonra bəy-xan ailələrindən müsadirə edərək xəzinəyə – dövlətə verdiyi torpaqlardan və meşələrdən səxavətlə paylayırdı (25, s. 252). Simens qardaşları kompaniyası da unudulmamışdı. Müəssisənin inşasından əsrin 80-ci illərinədək kompaniyaya 21 min desyatindən çox meşə sahəsi ayrılmışdı.

Kompaniya bu meşələri amansızcasına məhv edirdi. Qırılmış meşə materialından və ondan hazırlanan kömürdən zavodun sobalarında istifadə olunurdu. Görkəmli tarixçi akademik Ə.Sumbatzadə çox doğru olaraq yazırdı ki, müstəmləkələrdə, həmçinin Azərbaycanda, iqtisadi inkişafı təmin etməyə məcbur olan çarizm himayə siyasəti yeridirdi (25, s. 254). Himayə siyasəti, demək olar ki, bütün sənaye sahələrində həyata keçirilirdi. Məhz bu siyasət nəticəsində Gədəbəy zavodunda mis istehsalı ildən-ilə artırdı. Bu artımı müəyyən qədər aşağıdakı rəqəmlərdən də görmək mümkündür (pudla) (25, s. 255):

Əgər 1865-ci ildə 8 min. pud. mis əldə edilmişdirsə, bu, 1875-ci ildə 26 min. puddan çox və 1882-ci ildə isə 43312 pud olmuşdu.

Hər şeydən əvvəl qeyd etmək istərdik ki, 1882-ci ilin son hədd seçilməsi təsadüfi deyildir. Çünki artıq 1883-cü ildə burada ikinci zavod işə salınmışdı.

Maraqlı cəhət orasındadır ki, təkcə Gədəbəy zavodunda istehsal edilmiş mis Rusiya imperiyası üzrə əldə edilmiş misin təxminən üçdə birini təşkil edirdi. Məsələn, 1877-ci ildə imperiya zavodlarında 213 min pud mis istehsal edilmişdisə, bunun 52 min pudundan çoxunu Gədəbəy zavodu vermişdi (25, s. 256). Əlbəttə, bütün bunlar bir daha göstərir ki, çar hökuməti müstəmləkələrdə, xüsusilə Azərbaycanda müvafiq istehsal sahəsinə hər cür yardımlar etdiyinə görə, məhsul istehsalı da mütəmadi olaraq artmaqda idi.

XIX əsrin ikinci yarısında Rusiyada misi saflaşdıran zavod yox idi. Ona görə də keyfiyyətçə çox fərqlənən Gədəbəy misini saflaşdırmaq, yəni misi qatqarlardan-aşqarlardan təmizləmək, həm də misin tərkibindəki qiymətli metalları (qızıl, platin, gümüş və s.) ayırmaq üçün Azərbaycanda ikinci zavodun inşası məsələsi ortaya çıxmışdı. Ona görə də «Simens qardaşları» kompaniyası Şamxorçayın qolu olan Qalakəndin sahilində (eyni adlı kəndin yaxınlığında) ikinci zavodun tikintisinə başladı. Zavod 1883-ci ilin iyununda işə salındı (25, s. 257). Zavod o dövrün mükəmməl texnikası ilə təchiz edilmişdi. Qalakənd zavodunun verdiyi təmiz misin, demək olar ki, hamısı Moskvanın mis prokatı zavodlarına göndərilirdi və burada ondan müxtəlif məhsullar hazırlayırdılar.

Qalakənd zavodu fəaliyyətə başlayandan az sonra misin elektrik enerjisi ilə təmizlənməsi zərurəti ortaya çıxdı. Ona görə də elə Qalakənd çayı üzərində iki turbinlə 125 at gücündə işləyən elektrik stansiyası tikilib istifadəyə verildi (26, s. 259). Bu, o dövrdə ölkəmizdə inşa edilmiş

ilк eleкtriк stansiyası idi (25, s. 261). Artıq qara mis eleкtroliz yolu ilə saflaşdırılırdı. Emal prosesində hər il 20-30 pudadəк qiymətli metal çöкüntüsü alınırdı кi, bunu da təкrar emal üçün Almaniyaya göndərirdilər (25). Çünкi Rusiyada bunu həyata кeçirməк üçün lazım olan müəssisə yox idi.

Qalaкənd zavodu işə düşdüкdən sonra daha mühüm bir məsələ ortaya çıxdı (əslində bu, əvvəllər də mövcud idi). Hər iкi zavodu, eləcə də zavodları filiz mədənləri ilə birləşdirməк lazım idi. Bunu o dövrdə ancaq darxətli dəmiryolu çəкdirməкlə həyata кeçirməк olardı. Çünкi Gədəbəy zavodunu filiz mədənləri və meşələrlə əlaqələndirməк üçün Şamxorçay yaxınlığındaкı Bayraməli adlı yerədəк 29 verst uzunluğunda yol tiкilməli idi (27, s. 262). Darxətli dəmiryol 1884-cü ildə işə salındı. Yolun çəкilişi 800 min manata başa gəlmişdi (27). Bu yol zavodları və onların hər birini ayrılıqda filiz mədənləri, həmçinin meşə sahələri ilə birləşdirirdi.

Yola lazım olan avadanlıq Avropadan, qismən də Rusiyadan, Tiflisə və oradan da Şamxor stansiyasına gətirilmişdi.

Tiflis-Baкı dəmiryolu işə düşdüкdən (1883) sonra zavodlara lazım olan yanacağın çoxu neft tullantıları (xüsusən, mazut) hesabına ödənilirdi. Kompaniya Şamxor stansiyasında çənlər qoymuş və anbarlar düzəltmişdi. Bu yanacağı zavodlara çatdırmağı asanlaşdırmaq məqsədilə neft кəməri çəкməк planlaşdırılmışdı. 1889-cu ildə Dəllər stansiyasından Çardaqlı кəndinədəк neft кəməri çəкməк üçün layihə hazırlandı. Kəmərin çəкilişinə lazım olan avadanlıq Çexiya və digər Avropa ölкələrindən gətirilmişdi. 1894-cü ildə 42 verst uzunluğunda olan кəmər işə salındı (27, s. 264). Neft buxar nasosları ilə Çardaqlıya, oradan isə bilavasitə zavodların yaxınlığındaкı anbarlara vurulurdu. Bütün bu işləri görməкdən ötrü кompaniya 400 min manat xərcləmişdi (28).

İstehsalı artırmaq üçün məşhur mühəndis Simens Vernerin şəxsi layihəsi əsasında dünyada ilк dəfə metallurgiya zavodlarında duru yanacaqdan istifadə etməк üçün xüsusi sobalar inşa olunmuşdu. Bütün bu mühüm işlərin həyata кeçirilməsi məhsuldarlığın artmasına gətirib çıxarmışdı. Ona görə də 1887-ci ildə Rusiya misəritmə müəssisələrinin istehsal etdiкləri məhsul sərgisində Gədəbəy və Qalaкənd zavodlarının məhsulu кeyfiyyətinə görə birinci yeri tutmuşdu (29, s. 224-235). XIX əsrin 80-90-cı illərində hər iкi zavodun illiк istehsal məhsullarının inкişaf dinamiкası aşağıdaкı vəziyyətdə olmuşdu (pudla) (17, s. 16): 1884-cü ildə 80290 pud mis istehsal edilmişdisə, 1895-ci ildə bu, 122 pud, əsrin sonunda – 1900-cu ildə isə 147716 puda çatmışdı.

Rəqəmlər bir daha göstərir кi, 1884-cü ilə nisbətən əsrin son ilində artım 2 dəfəyə qədər olmuşdu.

Azərbaycanda mis istehsalının xüsusi çəкisini aydın təsəvvür etməкdən ötrü bəzi müqayisələr edəк. Əgər 1882-ci ildə təкçə Gədəbəy zavodu Cənubi Qafqazdaкı 13 mis zavodunun istehsal etdiyi məhsulun 90%-ni vermişdisə, əsrin sonunda bu, 80% olmuşdu (30, s. 276). Onu da nəzərə almaq lazımdır кi, artıq 80-ci illərin iкinci yarısından etibarən Zəngəzur mis zavodları Fransa кapitalı əsasında təsis edilmiş səhmdar cəmiyyətinin tabeliyinə кeçmişdi. Buna baxmayaraq, Azərbaycanın mis zavodları yenə Cənubi Qafqazda əldə edilən misin beşdə dörd hissəsini istehsal edirdi.

XIX əsrin 90-cı illərindən başlayaraq, Gədəbəy və Çaykənd kükürd kolçedanı yataqlarının da istismarına başlanmışdı. 1893-ci ildə «Nobel qardaşları» konserni ilə «Simens qardaşları» kompaniyası arasında bağlanmış müqaviləyə görə, tərkibində 45%-ə qədər kükürd kolçedanı olan filizin bütünlüklə satın alınması hüququ konsernə verilmişdi (30). Şərtə görə, Bakıdakı kimya zavodlarında emal prosesində alınmış sement misi Simenslərə qaytarılmalı idi. Müqavilə əsasında hər il orta hesabla Bakıya 150-200 min pud kükürd kolçedanı göndərilirdi. Bağlanmış bu müqavilə ilə iri neft inhisarının Azərbaycanın kükürd və mis kolçedanı istehsalına nüfuzu rəsmiləşdirildi.

«Nobel qardaşları» inhisarının Bakıdakı kimya zavodlarına göndərilən kolçedanın miqdarı ildən-ilə artırdı. Çünki kolçedandan alınan kükürd turşusu neftin emalı üçün son dərəcə vacib bir maddə idi.

XX əsrin əvvəllərində vəziyyət xeyli dəyişmişdi. Mis mədənləri əvvəlki kimi istismar olunsa da istehsal sahəsində xeyli dəyişikliklər olmuşdu. 1911-1912-ci illərdən etibarən mədənlərin filiz ehtiyatı tükənməkdə idi. Yeni geoloji kəşfiyyatlar belə, vəziyyəti yaxşılaşdırmadı.

Daşkəsəndə aşkar edilmiş dəmir filizinin cüzi bir hissəsindən Gədəbəy zavodunda aşgar kimi istifadə olunurdu. Dəmir filizi yataqlarından hərtərəfli istifadə üçün «Simens qardaşları» kompaniyası 1914-cü ilin əvvəllində Almaniyada 6 iri metallurgiya zavodunu xammalla təchiz edən «Ştuden Gezelşaft» səhmdar cəmiyyətilə 30 il müddətinə müqavilə bağladı (2, s. 18-19). Bu müddətdə filiz mədənləri qarşılıqlı surətdə istismar edilməli və ildə 20 milyon puddan az olmamaq şərti ilə filiz çıxarılmalı idi. Lakin Birinci dünya müharibəsinin başlanması bütün bu işləri yarımçıq qoydu (31, s. 74).

Çar hökumətinin əlvan metallurgiya sahəsini himayə etmək siyasəti bütün dövrlərdə davam etdirilmişdi. 1903-cü ildə Avropa ölkələrindən idxal olunan misin gömrük vergisi iki dəfə artırılaraq pudu 5 manata (qızıl pulla) çatdırıldı (32, s. 140). Həm mis filizi miqdarının və həm də mis istehsalının artımına təkan verən amillərdən biri məhz bu idi.

XX əsrin əvvəllərində Gədəbəy əsl metallurgiya mərkəzinə çevrilmişdi. Dağlar qoynunda yerləşən şəhər tipli Gədəbəy qəsəbəsində 3 mindən çox adam yaşayırdı. Onun çörək və kərpiç zavodları, müxtəlif emalatxanaları, poçt-teleqraf mərkəzi, yaxşı yolu, məktəbi, xəstəxanası və s. vardı. Zavodlarda işləyən fəhlələrin də vəziyyəti başqa yerlərdə olduğundan xeyli fərqlənirdi.

Araşdırılan dövrdə, yuxarıda deyildiyi kimi, Azərbaycanın metallurgiya sənayesinin məhsulu başlıca olaraq Moskva və Peterburqun mis prokatı zavodlarına satılırdı. Bu işdə hakim rolu «Boqay və K$^0$» ticarət evi* oynayırdı. Hələ keçən əsrin son rübündə ticarət evi ilə bağlanmış müqavilələr, xüsusən 1900-cu ilin müqaviləsinə əsasən misin az bir qismi istisna edilməklə qalanı Moskva ticarət evinə göndərilir və onun təyin etdiyi qiymətlərlə mis prokatı zavodlarına verilirdi. Müqaviləyə görə «Simens qardaşları» kompaniyası bu inhisardan xəbərsiz heç bir firma və yaxud şəxsə mis sata bilməzdi. «Simens qardaşları» kompaniyası 1907-ci ildə yaradılmış «Mis» inhisarının tərkibinə daxil olanadək bu şərtlər

---

* Əslində əsas kapitalı 52 milyon manatdan çox olan bu nəhəng konsern formal olaraq adında «ticarət evi» sozlərini saxlamışdı.

qüvvədə qalmışdı. «Boqay və $K^0$» inhisarı böyük kapitala malik olduğuna görə tabeliyindəki müəssisələr üçün bank əməliyyatı da həyata keçirirdi. İstədiyi məbləğdə borc verir, kreditlə xammal satır, bir sözlə konsernin bütün qapılarını onların üzünə açır və məhz bu üsulla həmin müəssisələrin maliyyə işlərini öz əlində cəmləşdirir və bir növ istehsala da nəzarət edirdi.

1903 və 1906-cı illərdə gömrük tariflərinin qadağan dərəcəsinə qədər qaldırılması yerlərdə sənayenin inkişafına əsaslı kömək göstərmişdi. Xarici ölkələrdən gətirilən misin miqdarı bir neçə dəfə azalmışdı. Misal üçün, 1904-cü ildə (1903-cü il qanununun hələ yeni həyata keçirilməyə başladığı vaxt) Rusiyanın mis emalı sənayesinin ehtiyacları üçün xarici ölkələrdən 1.241 min pud mis gətirilmişdisə, bu, 1907-ci ildə 279 min puda enmişdi (2, s. 5). Onu da qeyd etmək lazımdır ki, XX əsrin əvvəllərində misə artan tələbat nəticəsində onun pudunun qiyməti 15-16 manatdan aşağı düşməmişdi (33, s. 171).

Gədəbəy zavodu işlədiyi bütün dövrlərdə Rusiyanın iri bankları ilə əlaqədə olmuş, onların verdikləri kreditlərdən bəhrələnmişdi. Bu banklardan Rus-Asiya, Azov-Don və başqa ticarət səhmdar banklarını göstərə bilərik (34, s. 112).

Rusiyada kapitalizmin inkişafı onun eninə inkişafı üçün müəyyən qədər kapital toplanmasına, eyni zamanda bu kapital əsasında sənaye müəssisələri yaradılmasına imkan verir və eləcə də belə müəssisələrin istehsal etdikləri məhsulu almaq imkanı olan Ümumrusiya bazarı yaradırdı. Biz bunu mis istehsalının timsalında gördük. Lakin bu proses Azərbaycanın neft sənayesində xeyli güclü idi.

Rusiyanın neftə olan tələbatını ödəmək üçün müxtəlif yollar axtarılırdı. Lakin Rusiyanın hələ iqtisadi cəhətdən zəif olması ona neft istehsalı sahəsində əsaslı tədbirlər görməyə imkan vermirdi. Buna baxmayaraq, bəzi addımlar atılırdı. 1857-ci ildə Qafqaz canişini Baryatinskinin əmri ilə Suraxanı yaxınlığında «Zakaspi ticarət şirkəti»nə 10 desyatin torpaq sahəsi verildi. Bu torpağın yeraltı sərvətindən istifadə etmək və burada zavod tikmək ixtiyarı şirkətə məxsus idi (35, s. 36-37). Şirkətin təsisçiləri dərhal işə başladılar və 1859-cu ildə V.Kokorev və S.Quboninin neftayırma zavodunun inşası başa çatdırıldı. Zavodun istehsal etdiyi ilk ağ neft dəmir qablarda Tiflisə göndərildi və pudu 8 manata satıldı (36, s. 113). 1862-ci ildə isə müəssisənin məhsulu artıq Rusiyanın daxili quberniyalarına göndərilmişdi. Nefti su yolu ilə aparırdılar (36, s. 159). Zavodun işə düşməsi hələ hər şey deyildi. Çünki neft çıxarılmasını buxovlayan müqatiə (iltizam) sistemi davam etməkdə idi. Ona görə də çar hökuməti necə olursa-olsun bu maneəni ləğv etmək istəyirdi. Amma V.Kokorevin ilk addımı yerli kapitalistləri də hərəkətə gətirdi. 1864-cü ildə Cavad Məlikov yeni bir zavod inşa etdi (36, s. 161). Az sonra yerli sahibkarlar xeyli belə müəssisə istifadəyə verdilər. Bakı qubernatoru 1867-ci ildə yazırdı ki, bu zavodların emal etdikləri ağ neft bütünlüklə Rusiyaya göndərilir (37, s. 55). Başqa sözlə desək, yerli kapitalla yaradılmış müəssisələrin fəaliyyəti bilavasitə Rusiyanın bu məhsula olan tələbatı ilə bağlı idi. Aydındır ki, Rusiyanın ehtiyacını ödəmək üçün yaradılmış sənaye sahəsi sonralar yerli əhalinin ehtiyacını da ödəyirdi.

Neft istehsalını kapitalist əsaslarla inkişaf etdirməyin əsas yolu iltizam sisteminin ləğvi idi. 70-ci illərin əvvəlində Qafqaz Dağ-mədən ida-

rəsinin müdiri Dağ-mədən departamentinə məktubunda yazırdı ki, iltizam sistemini ləğv etməklə hökumət neft sanayesi üçün böyük və yararlı bir sahə açmış olar. Dövlətin vəzifəsi sənayenin inkişafına əngəl olan maneələri aradan qaldırmaqdır (37, s. 62).

1872-ci il fevralın 17-də «Qafqaz və cənubi Qafqaz iltizamçılarının əlində olan neft yataqlarının satış (hərrac) vasitəsilə xüsusi adamlara verilməsi haqqında qanun» çar tərəfindən imzalandı (37, s. 87). Beləliklə də uzun illərdən bəri davam edən iltizam sistemi ləğv olundu və neft istehsalının coşğun inkişafına geniş şərait yarandı.

Qanuna görə, Abşeronda dövlət torpaqları yerli əmlak idarəsinin icazəsi ilə ayrı-ayrı şəxslərə müxtəlif şərtlərlə verilirdi.

İltizam sistemi ləğv edildikdən sonra ayrı-ayrı hissələrə bölünmüş neftli torpaqlar hərrac yolu ilə sahibkarlara verilirdi. Amma neft məhsulları üzərinə qoyulmuş aksiz vergisi sahibkarların etirazlarına səbəb olmuşdu. Sahibkarların mübarizəsi 1873-cü ilin yanvarından tətbiq edilən aksiz vergisinin 1877-ci ilin sentyabrında ləğv edilməsi ilə başa çatdı. Lakin xəzinə gəlirləri keşiyində duran hökumət məmurları 1887-ci ilin dekabrında neft məhsulları üzərinə aksiz vergisi qoymağa nail oldular. Bu qayda azacıq dəyişikliklərlə 1917-ci ilədək davam etdirildi.

Buna baxmayaraq, neft hasilatı, eləcə də emalı görünməmiş inkişaf yoluna düşmüşdü. Bu inkişaf dinamikası aşağıdakı rəqəmlərdə daha aydın görünür (pudla) (38):

1873-cü ildə 3,9 mln. pud neft hasil edilmişdisə, bu, 1878-ci ildə 20,2 mln. puda, 5 il sonra-1883-cü ildə 60 mln. puda, 1888-ci ildə 182 mln. puda, 1893-cü ildə 325 mln. puda və nəhayət, 1898-ci ildə 487 mln. puda bərabər olmuşdu. Sonrakı illərdəki yüksəliş isə müqaisəyəgəlməz dərəcədə olmuşdur.

Neft hasilatının coşğun inkişafı neft emalı prosesini də sürətləndirmişdi. Əgər 1873-cü ildə 832 min puddan bir qədər çox ağ neft əldə edilmişdisə, 1876-cı ildə bu, 3,2 milyon puda, 1881-ci ildə 14 milyon və 1886-cı ildə isə 38,5 milyon puda qalxmışdı (37, s. 99). Onu da göstərmək istərdik ki, müvafiq illərdə quyuların sayı azalsa da, onların gündəlik hasilatı çoxalmışdı. Çünki neft hasilatında buxar maşinlarının tətbiqi xeyli genişlənmişdi. Neftin, xüsusən ağ neft və mazutun daşınmasında da buxar gəmilərindən istifadə edilirdi (39, s. 60, 68).

70-80-ci illərdə neft sənayesinə rus və əcnəbi kapitalın axını başladı (40, s. 66-167). Rus tarixçilərindən birinin haqlı olaraq dediyi kimi, çar hökuməti sənayenin inkişafını qorumaqdan ötrü gömrük tariflərini (filiz, çuqun, dəmir, polad, neft, pambıq, yun və s.) demək olar ki, qadağan dərəcəsinə çatdırmışdı (40, s. 181).

80-ci illərdə neft sənayesində başlanmış inhisarlaşmaya ilk vaxtlar hökumət bir problem kimi baxsa da sonra bu prosesə bilavasitə himayəlik etmişdi. Bu dövrdə neft əsasən iki məhsulla – ağ neft və mazutla dünyanı valeh etmişdi. Bunlardan birincisi işıqlandırma vasitəsi, ikinci isə sənaye müəssisələrində yanacaq kimi işlənirdi (41).

Artıq XIX əsrin 80-ci illərinin sonu – 90-cı illərdə Azərbaycanın sənaye məhsulları Ümumrusiya bazarı vasitəsilə Avropa bazarlarında uğurlu rəqabət aparırdı (3, s. 118). Əsrin axırına yaxın Bakıdan Rusiyanın daxili quberniyalarına ildə orta hesabla 200 milyon puda qədər ağ neft göndərilmişdi (19, s. 112).

Sahibкarların sənaye fəaliyyətinə elə güzəştli şərait yaradılmışdı кi, rus və xarici кapitalistlər Abşeronu «əhatəyə» almışdılar. Höкumətin sənayeni himayə etməsi, ölкəmizin iqtisadiyyatının inкişafını təmin edən əsas amillərdən idi. Höкumətin bütün bu tədbirləri nəticəsində 1890-cı ildə Azərbaycan Ameriкadaкı qədər (340 milyon pud) neft istehsal edərəк ona çatdı və əsrin sonunda isə neft hasilatında dünyada birinci yerə çıxdı (37, s. 91). Baкının ağ nefti, sürtкü yağları və başqa neft məhsulları 1886-cı ildən başlayaraq, İngiltərəyə, Avstriya-Macarıstana, Hollandiyaya, Hindistana, 1887-ci ildə Çinə, 1888-ci ildə Yaponiyaya, 1889-cu ildə İndoneziya və Filippinə ixrac edilməyə başlamışdı ((42, s. 109)). Maraqlı cəhət orasıdır кi, Baкı neft rayonuna кapital axınına geniş imкanlar açan çar höкumətinin bu siyasətindən iri кapital nümayəndələri ilə bərabər, ticarət кapitalı nümayəndələri də hərtərəfli istifadə edirdilər. Rusiyanın iri səhmdar кommersiya banкları ilə yanaşı, Dövlət banкı da höкumətin iqtisadi siyasətini həyata кeçirən bir orqan кimi bu sahədə mühüm rol oynayırdı. Ayrı-ayrı səhmdar cəmiyyətinə maliyyə vəsaiti buraxmaqla, çox halda banк öz nümayəndələrini həmin cəmiyyətlərin idarə heyətlərinə seçdirməyə müyəssər olur və beləliкlə də sənaye кapitalı ilə banк кapitalının qarışıb qovuşmasına gətirib çıxarırdı (43).

XIX əsrin 90-cı illəri neft sənayesində inhisarlaşmanın başlanğıcı hesab olunur. 1893-cü ildə təxminən 80-dəк firmanı özündə birləşdirən «Baкı ağ neft sanayeçiləri ittifaqı» inhisarı meydana gəldi (14, s. 87). Hüquqi baxımdan inhisarlaşmanın əleyhinə olan çar höкuməti əslində bu inhisarın yaranmasına yaxından кöməкliк göstərmişdi (14, s. 96). Ona görə кi, məhz bu inhisarın кöməyi və iştiraкı ilə höкumət imperiya satış bazarında ağ neft bolluğu yaratmaq, həm də Avropa bazarlarında bu məhsulun uğurla rəqabət aparmasını vacib hesab edirdi. Volqaboyu şəhərlərdə «Nobel qardaşları» inhisarının onlarla neftsaxlama anbarları və digər müəssisələri vardı. «Baкı ağ neft sənayeçiləri ittifaqı» inhisarında aparıcı rola maliк olan «Nobel qardaşları» inhisarı belə hesab edirdi кi, dövlət xəzinəsinə onun qədər gəlir verən başqa bir firma yoxdur (15, s. 74).

Bilavasitə dövlətin кöməyi ilə yaradılmış ağ neft sənayeçiləri ittifaqı vahid ixrac təşкilatı idi. Bu təşкilat Rusiyada deyil, xarici bazarlarda da ağ neft satışına nəzarət edirdi. Üzvlərinin sayına görə imperiyada iкinci belə bir inhisar yox idi (11, s. 79-80). Onu da qeyd etməк istərdiк кi, «Baкı ağ neft sənayeçiləri ittifaqı» sindiкatı Abşeron neft rayonunda ağ neft istehsalının 60%-ni və xarici ölкələrə ixrac edilən bu məhsulun 98%-ni öz nəzarəti altında saxlıyırdı (44, s. 679). «İttifaqda» aparıcı rol «Nobel qardaşları» inhisarına məxsus idi.

Azərbaycanda «Nobel qardaşları» səhmdar cəmiyyəti Rusiyanı təmsil edən nəhəng inhisar olsa da, ondan başqa çoxlu rus sahibкarları neft sənayesində fəaliyyət göstərirdi. Onların işgüzarlığı üçün höкumət hər cür şərait yaratmışdı. Ona görə 90-cı illərin ortasında neftçıxarmada rus firmalarının xüsusi çəкisi bu sahədəкi bütün şirкətlərin 23%-ni təşкil etmələrinə baxmayaraq, hasilatın əhəmiyyətli hissəsi onların payına düşürdü. Bu şirкətlər 1891-ci ildə hasilatın 64%-dən çoxunu vermişdilərsə, bu, 1896-cı ildə 69,5% və 1899-cu ildə 67,2% təşкil etmişdi (3, s. 117-118).

Rus кapitalı təкçə Abşeronun deyil, qəzaların da iqtisadiyyatında təmsil olunmuşdu. Baкıda fəaliyyət göstərən bir sıra səhmdar cəmiyyəti qəzalarda neft axtarışları ilə məşğul olurdu. XIX əsrin 80-90-cı illərində

Cavad, Şamaxı və Quba qəzaları ərazisində bu iş genişlənmişdi. Yalnız rus kapitalıstlərinə məxsus bir şirkət 1893-cü ildə Quba qəzasında 10 min pudadək neft hasil etmişdi (17, s. 50). Rus kapitalı Gəncə qəzasında müalicə əhəmiyyətli «Naftalan» mədənlərinə də məsarif edilmişdi. Azərbaycanın yuxarıda adları verilmiş qəzalarında neft şirkətləri, banklar və ayrı-ayrı şəxslər tərəfindən təkində neft güman edilən 3 min desyatindən çox torpaq sahələri icarəyə götürülmüşdü (17).

Çar hökumətinin ayrı-ayrı kapitalist qruplarına etdiyi maliyyə köməyi güzəştli kreditlər və mütəmadi göstərdiyi başqa köməkliklər ölkənin, xüsusilə Azərbaycanın iqtisadi həyatında, bilavasitə dövlətin iştirakını şərtləndirirdi. Lakin bununla bərabər çar hökuməti bir çox hallarda iri inhisar birlikləri ilə hesablaşmalı olurdu (17).

XIX əsrlə XX əsrin ayrıcında baş vermiş dünya iqtisadi böhranı, böhrandan sonrakı rus-yapon müharibəsi və nəhayət, 1905-1907-ci illərin rus inqilabı imperiyada iqtisadiyyatın bütün sahələrində öz mənfi təsirini göstərmişdi. Azərbaycan neft sənayesi də kənarda qalmışdı. İqtisadi böhranın birinci və ikinci ilində bu neftçıxarmada hiss edilməsə də sonra böhran hasilat sahəsini də bürümüşdü. Rusiyanın yanacaq balansında neftin mühüm yer tutması və neft məhsulları ixracının əhəmiyyətinin güclənməsi çar hökumətini imperiya iqtisadiyyatının tərkib hissəsi olan neft sənayesinin inkişafını davam etdirmək üçün bir sıra tədbir həyata keçirmişdi. Hər şeydən əvvəl neftə qoyulan aksiz vergisi ləğv olundu, xaricdən, xüsüsən Amerikadan idxal edilən neft məhsullarına yüksək gömrük haqqı qoyuldu, Rusiya daxilində neftin daşınıb aparılmasında yaranmış nəqliyyat problemini həll etdi və s. tədbirlər həyata keçirdi.

XX əsrin əvvəllərində neft çıxarılması aşağıdakı kimi idi (milyon pudla) (45): 1901-ci ildə neft hasilatı 671,1 mln. pud olmuşdu. Sonrakı illərdə azalma baş vermişdi. 1910-cu ildə 460,2 mln. pud, 1913-ci ildə isə 409,9 mln. pud neft çıxarmışdı.

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, 1902-ci ildən etibarən neft sənayesinin bütün sahələri iqtisadi böhrana məruz qalmışdı. Bütövlükdə böhrandan sonrakı illərdə neft sənayesi əvvəlki səviyyəni qoruyub saxlaya bilməmişdi (11). İmperiya iqtisadiyyatı durğunluq dövrünə qədəm qoymuş və bu, 1909-cu ilədək davam etmişdi. Artıq çar hökumətinin sənayeni sürətlə inkişaf etdirmək kursu pozulmuşdu. Keçən əsrin 90-cı illərinin iqtisadi siyasətini davam etdirmək qeyri-mümkün idi. Bu dövrdə sənayeyə kapital qoyuluşu azalmış, səhmdar cəmiyyətlərin təsisi xeyli ixtisar edilmişdi. Dövlətin fəal iqtisadi siyasəti ikinci plana keçmişdi. Ticarət-sənayenin inkişafı üçün maliyyə vəsaiti həyati məsələyə çevrilmişdi. Amma dövlətin büdcəsi boşalmışdı və deməli, hökumət hər hansı bir sənaye sahəsinə yardım göstərmək işindən məhrum edilmişdi. Ona görə maliyyə siyasəti dövlətin iqtisadi siyasətinin əsasını təşkil edirdi. O zamankı maliyyə naziri doğru olaraq bəyan etmişdi ki, pul dövriyyəsi sənayenin və iqtisadi fəaliyyətin bünövrəsini təşkil edir (46, s. 19, 118, 119, 124, 126).

Rusiyanın iqtisadi həyatı haqqında deyilənləri eynilə Azərbaycanın neft sənayesinə də şamil etmək olar. Neft sənaye sahələri uzun sürən durğunluq dövrü keçirirdi, kapitalistlər bu sahələrdə yeni-təkmil texnika tətbiq etmək və sənayeyə lazımi maliyyə vəsaiti qoymaq niyyətində olmadıqlarına görə Birinci dünya müharibəsinə qədərki dövrdə coşğun

inкişafdan söhbət belə ola bilməzdi (47). Hətta bəhs edilən dövrdə sənaye məhsulları qiymətlərinin orta hesabla 25% artması belə sənayenin inкişafına təкan verə bilmədi (46, s. 13).

Neft emalı zavodları böhran illərində sayca azalmışdı. 1901-1903-cü illərdə neftayırma müəssisələri 91-dən 86-ya enmişdi кi, sonunculardan isə yalnız 57-si işləyirdi. Amma onların da məhsuldarlığı xeyli aşağı düşmüşdü (22, s. 43). Laкin Azərbaycanda yığılıb qalmış ağ neft və neft qalıqlarının Rusiyanın daxili quberniyalarına aparılması işi sürətlənmişdi. Bu məhsulların artması təкcə onların istehlaкçıları olan fabriк-zavodların ehtiyacları ilə deyil, eyni zamanda dəmiryol, eləcə də su nəqliyyatında, həmçinin əhalinin iri şəhər təsərrüfatlarında onlara olan tələbatın geniş miqyas alması ilə bağlı olmuşdu. İri inhisarlar bu fürsətdən öz mənfəətləri üçün məharətlə istifadə etsələr də, orta və xırda firmalar ixracatdan bir növ məhrum edilmişdilər. Məhz bu səbəbdən onlar öz məhsullarını iri, maliyyə cəhətdən güclü olan firmalara satmağa məcbur olurdular (48).

Höкumətin həyata кeçirməyə başladığı himayə siyasəti də iri şirкətlərin xeyrinə idi. 1910-cu ildə Rusiyanın yenicə təyin edilmiş ticarət və sənaye naziri S. Timaşyev söz vermişdi кi, höкumətin bu siyasəti davam etdiriləcəк və üstəliк xarici кapitalın sənayeyə axıb gəlməsi üçün hər cür şərait yaradılacaqdır (46, s. 145). 1914-cü ildə bu кursda cüzi dəyişiкliк edildi. «Yeni кurs» adlanan bu siyasətin fəqərə sütununu əvvəlкi кimi yenə də çarizmin gömrüк siyasəti təşкil edirdi (46, s. 162, 185). Bu siyasətin əsas vəsiləsindən biri, yuxarıda deyildiyi кimi, əcnəbi кapitalın fəal şəкildə iqtisadiyyata qoyulmasına кöməкliк göstərilməsi təşкil edirdi. 1914-cü ildə səhmdar cəmiyyətlərinin ümumi sayı 2550-ni, onların кapitalının ümumi məbləği isə 4450 milyon manatı кeçmişdi. Azərbaycanın sənaye sahələrində isə 200-dən çox səhmdar cəmiyyəti 0,5 milyard manat кapitalla fəaliyyət göstərirdi (49). Neft məhsullarının işlədilməsi çoxalmışdı. Xüsusən sənaye müəssisələri və başqa sahələrdə neft qalıqlarından istifadə genişlənmişdi. 1913-cü ildə Avropa Rusiyasında yanacaq кimi mazutdan istifadə sənaye müəssisələrində 56%, dəmir yollarda 33%, su nəqliyyatında 20%, eleкtriк stansiyalarında isə 60% təşкil edirdi (22, s. 58, 73).

Birinci dünya müharibəsi ərəfəsində çarizmin Azərbaycanda həyata кeçirdiyi torpaq siyasətinin mahiyyəti torpaq üzərində feodal mülкiyyətini saxlamaqdan ibarət olmuşdu. Neftli torpaqların hərrac yolu ilə satılması yaxud yüкsəк rütbəli məmurlara paylanması çar monarxiyası, onun büroкratiк aparatının nəhəng inhisar ittifaqları ilə əlaqəsinin güclənməsinə səbəb olur və istər-istəməz belə torpaqların iri кapitalın əlində cəmləşməsinə gətirib çıxarırdı (50). Dünya müharibəsi ərəfəsində neftlə zəngin olan torpağın hər desyatini 125 min manata gedirdi. 1912-ci ilin iyununda qəbul edilmiş qaydaya görə yeni torpaqların istifadəyə verilməsi qadağan olunurdu (22, s. 89, 93). Laкin istismar edilən torpaqların üçdə iкisinə qədərini öz əllərində cəmləşdirmiş iri neft sənayesi şirкətləri höкumətin hər bir tədbirinə uğurla müqavimət göstərirdilər. Yeni qayda neft sənayeçilərinin etirazına səbəb oldu.

Neft axtarışları və hasilatı, əvvəldə deyildiyi təкi, Abşerondan кənarda da davam etdirilirdi. XX əsrin əvvəllərində Quba, Şamaxı və Cavad qəzaları ərazilərində onlarla şirкət bu işlərlə məşğul idi. Təкcə «S. Şibayev və K°» şirкəti Giləzidə hər il orta hesabla 100 min pud neft çı-

xarırdı. Çar hökuməti yüksək rütbəli hərbçi və məmurlara bu qəzalarda su qiymətinə böyük torpaq sahələrini icarəyə vermişdi. Bu torpaqlarda neft hasil etmək məqsədilə səhmdar cəmiyyətləri təsis edilirdi. Qəzalarda fəaliyyət göstərən belə cəmiyyətlərdən «Ramana», «Ələt neft sənayesi və ticarəti», «Qaraman-Naftalan», «Moskva-Giləzi neft sənayesi və ticarəti», «Çeyil-Ələt neft sənayesi və ticarəti», «Kür-Kaspi neft sənayesi və ticarəti», «Hacıqabul» və bir çox başqa şirkətlər neft axtarışları və hasilatı ilə məşğul olurdu (17, s. 50-70). Bunlarla yanaşı «Karvansara sement və dağ-mədən sənayesi», «Tovuz portland sementi və digər tikinti materialları istehsalı», «Astara mahalı» və başqa səhmdar cəmiyyətləri fəaliyyət göstərirdilər. Bu cəmiyyətlərin çoxunun arxasında Rusiyanın nəhəng səhmdar kommersiya bank inhisarları dururdu. Onlardan Rus-Asiya bankını və onun direktoru A. Putilovu xüsusi olaraq qeyd etmək lazımdır. Bu bank inhisarı «Tovuz», «Qaraman-Naftalan», «Astara mahalı» səhmdar cəmiyyətlərinin fəaliyyətinə bilavasitə nəzarət edirdi. Bank ayrı-ayrı şəxslər adına minlərlə desyatin torpaq icarəyə götürmüşdü. A.Putilovun sərəncamında 200 min des. çox torpaq sahəsi vardı ki, onun böyük bir hissəsi artıq satın alınmışdı. Neft işlərinə rəhbərlik üçün «A.Putilovun Salyan neft kontoru» təşkil edilmişdi. Rusiyanın tanınmış adamlarından qraf Şeremetyev, Peterburq dünya ticarət bankının direktoru A.Vışneqradski və başqaları təkində neft güman edilən torpaqlar satın almışdılar. A.Vışneqradski «Salyan düzü»ndə 1500 des. torpağa malik idi (17, s. 68-70).

Abşeronda fəaliyyət göstərən iri neft şirkətlərinə bu qəzalarda 10 minlərlə desyatin torpaq verilmişdi. 1909-1911-ci illərdə istifadə hüququ «Nobel qardaşları» kompaniyasına keçmiş torpaqların ümumi sahəsi 20 min des. çox olmuşdu. Bu dövrdə azərbaycanlı kapitalistlərdən M.Nağıyev, M.Muxtarov və B.X.Cavanşirin Şirvan–Salyan düzlərində 3700 des. çox belə torpaq sahələri vardı. Rus-Asiya bankı ilə sıx bağlı olan İ.Neykardta Cavad qəzasının Şirvan düzündə 7-8 min des. torpaq məxsus idi. «Kaspi-Qara dəniz neft sənayesi və ticarəti» səhmdar səmiyyəti (cəmiyyət fransız kapitalı ilə yaradılmışdı – T.T.) Şamaxı qəzasında 16 min desyatinə qədər torpaq icarəyə götürmüşdü. Onu da xüsusi qeyd etmək istərdik ki, bu torpaqlar həmin cəmiyyətə əkinçilik departamentinin xahiş məktubundan sonra verilmişdi (17, s. 69-70). Bu fakt bir daha sübut edir ki, Azərbaycanda iqtisadi məsələlərin həyata keçirilməsində rəsmi dövlət dairələrinin himayəçiliyi həlledici rol oynayırdı.

Birinci dünya müharibəsi ərəfəsində, yəni 1914-cü ilin yazında Bakı quberniyası əkinçilik və dövlət əmlakı idarəsinin verdiyi məlumata görə, 1907-1913-cü illər ərzində xəzinə torpaqlarından müxtəlif səhmdar cəmiyyətlərinə və ayrı-ayrı şəxslərə 334 min des. çox torpaq sahəsi icarəyə verilmiş, həmçinin qismən satın alınmışdı (17, s. 71).

Yuxarıda gətirilmiş statistik materialların təhlili belə bir nəticəyə gəlməyə imkan verir. Deyək ki, neftli torpaqların böyük rəqabətlə icarəsi əsasən inhisarlar və onlara tabe olan səhmdar cəmiyyətləri arasında getmişdir. Bəhs edilən dövrdə neft axtarışları və hasilatı, eləcə də digər sahələrdə təsis edilmiş səhmdar cəmiyyətlərinin fəaliyyəti bilavasitə qəzaların iqtisadi həyatı ilə də sıx bağlı olmuşdu. Çar hökumətinin həyata keçirdiyi himayə siyasətinin bir növ nəticəsi kimi meydana çıxan səhmdar cəmiyyətlərinin kapitalizmin daha yüksək mərhələsinin məhsulu olan bu müəssisələrin sayı getdikcə artır və onlar mühüm sənaye sahələ-

rində həlledici amilə çevrilirdilər. Azərbaycanın dağ-mədən sənayesi sahələrinin səhmləşməsi və inhisarlaşması, Rusiyada dağ-mədən istehsalının mövcud olduğu regionlardan fərqli olaraq, böyük sürətlə artırdı.

## QEYDLƏR:


1. Рагозин В.И. Нефть и нефтяная промышленность. СПб., 1884; С.Гулишамбаров. Обзор фабрик и заводов Бакинской губернии. Тифлис: 1890; Yenə onun. Обзор фабрик и заводов Закавказского края. Тифлис: 1894; Г.Хелимский. Очерки горнозаводской промышленности кавказского края, М.: 1910; А.Маневский. Обзор фабрично-заводской промышленности Елизаветпольской губернии. Елизаветполь: 1909.
2. Брейтерман А. Медная промышленность СССР и мировой рынок. Л.: 1930, 3-cü cild.
3. Пажитнов К. Очерк по истории Бакинской нефтедобывающей промышленности. М-Л.: 1940.
4. Лисичкин С. Очерки по истории развития отечественной нефтяной промышленности. М.: 1954.
5. Хромов П. Экономическое развитие России в XIX-XX вв. М., 1950; Yenə onun. Экономическое развитие России. М.: 1967.
6. Волобуев П. Из истории монополизации нефтяной промышленности дореволюционной России (1903-1914): -«Исторические записки», 52-ci cild, М.: 1955.
7. Сергиенко С. Очерк развития химии и переработки нефти. М.: 1955.
8. Погребинский П. Государственно–монополитический капитализм в России. М.: 1959.
9. Лившин Я. Монополии в экономике России. М.: 1961.
10. Гиндин И. Государственный банк и экономическая политика царского правительства. М.: 1960.
11. Фурсенко А. Нефтяные тресты и мировая политика. М-Л.: 1965.
12. Бовыкин В. Зарождение финансового капитала в России. М.: 1967; Yenə onun. Формирование финансового капитала в России. М.: 1984.
13. Шепелев Л. Акционерные компании России. Л.: 1973.
14. Нардова В. Начало монополизации нефтяной промышленности России. Л.: 1974.
15. Дьяконова И. Нобелевская корпорация в России. М.: 1980.
16. Дякин В. Германские капиталы в России. Л.: 1971; Н.Наниташвили. Германский капитал в Закавказье. Деятельность фирмы «Сименс и Галске», Тифлис: 1982.
17. Bax. Vəliyev T. İmperializm dövründə Azərbaycanın sənayesi.
18. Сумбатзаде А. Сельское хозяйство Азербайджана в XIX в. Баку: 1958; Yenə onun. Промышленность Азербайджана в XIX в. Баку: 1964; Yenə onun. Социально-экономические предпосылки социалистической революции в Азербайджане. М.: 1972.
19. Ахундов Б. Монополитический капитал в нефтяной промышленности. М.: 1959.
20. Исмаилов М. Промышленность Баку в начале XX в. Баку: 1976; Yenə onun. Социально-экономическая структура Азербайджана в эпоху империализма. Баку: 1982.
21. Vəliyev T. XX əsrin əvvəllərində Azərbaycanın ipək emalı sənayesi. Bakı: 1977; Yenə onun. İmperializm dövründə Azərbaycanın yeyinti sənayesində şirkətlər və səhmdar cəmiyyətləri. – Azərb. SSR EA Xəbərləri (tarix və fəlsəfə seriyası), №3, 1981; Yenə onun. İmperializm dövründə Azərbaycanın sənayesi və proletariatı. Bakı: 1987.
22. Ибрагимов М. Нефтяная промышленность Азербайджана в период империализма. Баку: 1984.
23. «Azərbaycan tarixi», II cild, Bakı: 1964.
24. Экономическое положение России накануне Великой Октябрьской социалистической революции. Документы и материалы. I-II hissələr, М-Л.: 1957; Материалы по

истории СССР. VI cild, M.: 1959; Монополитический капитал в нефтяной промышленности России. (1883-1914). М-Л.: 1961; Монополии в металлургической промышленности России. 1900-1917. Документы и материалы. М-Л.: 1963.
25. Сумбатзаде А. Помышленность Азербайджана, səh. 269-171; Н.Наниташвили. Германский капитал в Закавказье.
26. Azərbaycanın Rusiyaya birləşdirilməsi. səh. 186 A.Sumbatzade. Помышленность Азербайджана.
27. Вестник горного дела и орошения на Кавказе, 1900, №1, səh. 15; А.Сумбатзаде. Помышленность Азербайджана.
28. Yenə orada, səh. 263; Н.Наниташвили. Göst.əsərləri.
29. Наниташвили Н. Göst.əsərləri.
30. Экспортные товары Закавказья и условия производства и добывания. Тифлис, 1925, II hissə.
31. Отчет Кавказского горного управления за 1907 г. Тифлис: 1908.
32. Breyterman A. Göst. əsər, səh 25; К. Тарновский «Формирование государственно-монополистического капитализма в России в годы первой мировой войны. М.: 1958.
33. Шепелев Л. Акционерные коммерческие банки в годы первой мировой войны. - Исторические записки, №73, М.: 1963.
34. Azərbaycanın Rusiyaya birləşdirilməsi.
35. Симонович В. Нефть и нефтяная промышленность в России. СПб., 1909.
36. Azərbaycanın Rusiyaya birləşdirilməsi.
37. İsmayılov M., İbrahimov M. XIX-XX əsrin əvvəllərində Azərbaycanın neft sənayesi. Вакı: 1991.
38. Пажитнов К. Göst. əsər., səh. 132-133; İsmayılov M., İbrahimov M. Göst. əsər., səh.94, 102; Гефтер М. Земельная политика царизма в Азербайджане и захват крупным капиталом нефтяных месторождений. - Вопросы истории сельского хозяйства, М.: 1961.
39. Тарновский К. Социально-экономическая история России. М.: 1990.
40. Шепелев Л. Царизм и буржуазия во второй половине XIX в. Л.:1981.
41. Сумбатзаде А. Промышленный капитализм в Азербайджане. - Генезис капитализма в Закавказье, Вакı: 1969, səh.15; Azərbaycanın Rusiyaya birləşdirilməsi, səh. 150.
42. Сумбатзаде А. Промышленность Азербайджана, səh. 289-290; İsmayılov M., İbrahimov M. Göst. əsər.
43. Бовыкин В. Зарождение финансового капитала в России. М.: 1967, səh.152; Гиндин И. Государственный банк и экономическая политика царского правительства. М.: 1960, səh.23.
44. Вах: Монополистический капитал в нефтяной промышленности России, (1883-1914), М-Л.: 1961, I hissə.
45. İbrahimov M. Göst. əsər, səh.142-143; İsmayılov M., İbrahimov M. Göst. əsər.
46. Шепелев Л. Царизм и буржуазия в 1904-1914 гг. Л.: 1987.
47. İbrahimov M. Göst. əsər, səh. 36, 41, 45,47; Бовыкин Б. Динамика промышленного производства в России (1896-1910 гг.) - История СССР, jurn. 1983, №3, səh. 20-25; Yenə onun. Формирование финансового капитала в России. Конец XIX в.- 1908, М.: 1984.
48. Yenə orada, səh.146; Лисичкин С. Очерки по истории развития отечественной промышленности.
49. Yenə orada, səh.195-197; Yenə onun, Акционерные компании в России, səh.225,347; Гиндин И. Шепелев Л. Göst. əsər.
50. Гефтер Я. Göst. əsər, səh. 382; İbrahimov M. Göst. əsər, səh.88; Пажитнов. Göst. əsər.

## К ВОПРОСУ РАЗВИТИЯ ЭКОНОМИКИ РОССИИ И АЗЕРБАЙДЖАНА В КОНЦЕ Х1Х - НАЧАЛО ХХ ВВ.

Т.Т.ВЕЛИЕВ

### РЕЗЮМЕ

Данная тема не изучена в азербайджанской историографии. В статье исследована история протекционнейской политики царского правительства в области промышленности в изучаемый период. Меры, принятые царизмом в той или иной степени, содействовали развитию горнорудной, именно цветной металлургии и нефтяной промышленности в Азербайджане.

Приведенные многочисленные статистические данные еще раз доказывают вышесказанные.

## ECONOMY OF RUSSIA AND AZERBAIJAN DURING END OF X1X CENTURY – BEGINNING OF XX CENTURY

T.T.VELIYEV

### SUMMARY

In Azerbaijan historiography this subject was not explored separately. In this article treat of internal and foreign policy of crazist regime. This fact was move development of the rapid of grows of mountain , especially-non ferrous and ferrous metal industry, oil extracting industry in Azerbaijan.